Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 237-239
DOI:10.30546/gdu.5.2025

**UOT:355.**

# TAM ORTA MƏKTƏBLƏRDƏ GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ İŞİNİN TƏŞKİLİ

***Hüseynov Fikrət Bəhlul oğlu, Babayeva Nurlana B.***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Məqalədə, müasir dövrdə gənclərin milli adət-ənənələrə hörmət etməsindən, vətənə olan sevgi hissindən və hərbi biliklərə yiyələnməsindən, onların hərbivətənpərvərlik tərbiyəsi işində aktivliyinin daha da artırılmasından danışılır. Hərbi-vətənpərvərlik tərbiyəsinin uğurla həyata keçirilməsi, tam orta ümumtəhsil məktəblərində tədris prosesinin düzgün təşkili və quruluşu müxtəlif üsulların tətbiqindən asılılılğından bəhs edilir.*

**Açar sözlər:** Hərbi vətənpərvərlik; pedaqoji; milli-mənəvi; fəlsəfi; müstəqillik; sinifdənkənar; milli qəhrəman.

**Ключевые слова:** военная подготовка, педагогическая, национальная, военно-политическая ситуация, программа преподавания

**Key words:** military training, pedagical, national, militarily-political situation, the program of teaching

Azərbaycanın geosiyasi mövqeyi, regiondakı mürəkkəb hərbi-siyasi vəziyyət və dövlətimizin milli maraqlarının qorunması bu sahənin strateji əhəmiyyətini dahada artırır. Hərbi vətənpərvərlik tərbiyəsi-gənclərin vətənə məhəbbət hissini, dövlətə bağlılıq və hərbi nizam-intizamı ruhunda formalaşdırılması prosesidir. Bütün bu fəlsəfi, pedaqoji, psixoloji və sosioloji elmlərə əsaslanır. Fəlsəfi baxımdan vətənpərvərlik dəyərləri insanın mənəvi kamilliyinə, milli kimliyinə əsaslanır. Pedaqoji yanaşmada isə hərbi-vətənpərvərlik tərbiyəsi tədris proqram mövzularının məzmununa inteqrasiya edilməklə, müəllim-şagird münasibətləri çərçivəsində həyata keçirilir. Psixoloji yanaşma, gənclərin emosional inkişafı və motivasiyasını əsas götürərək, onların hərbi xidmətə hazır olması üçün zəruri şəxsi keyfiyyətlərin formalaşdırılmasına diqqət yetirir. Bu sahədə beynəlxalq təcrübələrin öyrənilməsi, eləcə də Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin nəzərə alınması xüsusi əhəmiyyətkəsb edir. Müasir məktəblərdə bu sahədə rast gəlinən problemlərdən biri şagirdlərin vətənpərvərlik ruhunun zəifliyi və çağrışaqədərki hazırlıq dərslərinin yetərincə maraqlı olmamasıdır. Pedaqoji baxımdan bu problem, tədris proqramlarının məzmununda yetərli dərinliyin olmaması və müəllimlərin hazırlıq səviyyəsinin qeyri-kafiliyi ilə əlaqədardır. Psixoloji aspektlərdə isə gənclərin milli kimliyə bağlılıq hissinin zəifləməsi, texnoloji asılılıq və sosial şəbəkələrin təsiri diqqət çəkir. Bu problemlərin həlli üçün hərbi vətənpərvərlik tərbiyəsinə innovativ yanaşmalar tətbiq edilməli, yeni texnologiyalardan istifadə edilməli və gənclərin bu prosesdə fəal iştirakı təmin olunmalıdır. Hərbi-vətənpərvərlik tərbiyəsinin elmi-nəzəri əsasları onun pedaqoji, psixoloji və fəlsəfi baxışlara söykənməsindən irəli gəlir. Bu tərbiyə növü gənclərin milli-mənəvi dəyərlərə əsaslanan vətəndaşlıq məsuliyyəti ilə formalaşması prosesidir. Müasir dövrdə vətənpərvərlik anlayışı yalnız vətənə məhəbbət hissi kimi deyil, həm də dövlətin ərazi bütövlüyünün müdafiəsində fəal iştirak üçün zəruri olan bilik və bacarıqların inkişafı kimi qəbul edilir. Fəlsəfi yanaşma baxımından vətənpərvərlik, insanın öz millətinə və dövlətinə bağlılığını ifadə edən mənəvi konsepsiyadır.

Azərbaycan milli-mənəvi dəyərlərinin bu anlayışdakı yeri xüsusi əhəmiyyət daşıyır. Xüsusilə, müstəqillik, Dövlət sərhəddinin qorunması uğrunda aparılan mübarizə və bu mübarizənin qəhrəmanlarının gənclərə nümunə olaraq təqdim edilməsi, onların şüurunda vətənpərvərlik hisslərini gücləndirir.Pedaqoji baxımdan hərbi-vətənpərvərlik tərbiyəsi, ümumi təhsil proqramlarının tərkibində əsas istiqamət kimi nəzərdən keçirilir. Bunun üçün

DOI:10.30546/gdu.5.2025

müəllimlərin elmi və metodiki hazırlığının səviyyəsi mühüm rol oynayır. Eyni zamanda fənlərarası inteqrasiya, sinifdənxaric və məktəbdən kənar tədbirlərin təşkili bu tərbiyənin effektivliyini artırmaqda mühüm vasitələrdən biridir. Psixoloji yanaşma isə gənclərdə şəxsiyyətin formalaşma prosesində emosional, mənəvi və davranış komponentlərinin vətənpərvərlik dəyərlərinə uyğun olaraq inkişaf etdirilməsini nəzərdə tutur. Bu prosesdə motivasiya və liderlik keyfiyyətlərinin təkmilləşdirilməsi əsas amillərdən biridir. Hərbi-vətənpərvərlik tərbiyəsinin nəzəri əsaslarının tədqiqində beynəlxalq təcrübənin öyrənilməsi də mühüm rol oynayır. Müxtəlif ölkələrin təcrübəsində bu tərbiyənin müxtəlif metodlarla həyata keçirildiyi müşahidə olunur. Azərbaycan üçün bu təcrübənin yerli dəyərlərlə inteqrasiyası xüsusi maraq doğurur. Tam orta ümumtəhsil məktəblərində hərbi-vətənpərvərlik tərbiyəsi, tədris proqramlarının məzmununda vətənpərvərlik dəyərlərinin əks etdirilməsi ilə başlayır. Bu prosesdə çağrışaqədərki  hazırlıq dərsləri xüsusi yer tutur. Şagirdlərə vətənin müdafiəsini, intizamı, dövlətə sədaqət və qürur hissi aşılanmalı, onlarda məsuliyyət hissi formalaşdırılmalıdır.

Müəllimlərin bu prosesdə rolu danılmazdır. Onlar yalnız bilik vermək deyil, həm də gənclərin emosional və mənəvi inkişafına töhfə verməlidirlər. Bunun üçün müəllimlərin pedaqoji bacarıqları və metodik hazırlığı artırılmalıdır. Sinifdənkənar və məktəbdənkənar tədbirlər vasitəsilə şagirdlərə vətənpərvərlik nümunələri göstərilməli, milli qəhrəmanların, qazilərin  həyat hekayələri ilə tanışlıq təşkil edilməlidir.Tədris prosesində interaktiv metodlardan və müasir texnologiyalardan istifadə bu sahədə 238nnovative yanaşmalardır. Şagirdlərə müxtəlif simulyasiyalar, hərbi oyunlar və layihələr vasitəsilə real situasiyaları anlama və həll etmək imkanı yaradılmalıdır.

Vətənpərvərlik tərbiyəsi yalnız tədris prosesində deyil, həm də məktəb həyatının digər sahələrində inteqrasiya olunmalıdır. Tarixi ekskursiyalar, şəhidlərin xatirəsinə həsr olunmuş tədbirlər və milli bayramlar bu istiqamətdə xüsusi əhəmiyyət daşıyır.

Hərbi-vətənpərvərlik tərbiyəsinin effektivliyini artırmaq üçün praktik fəaliyyətlər ön plana çəkilməlidir. Bu fəaliyyətlər gənclərin vətənə bağlılığını artırır və hərbi bilik və bacarıqlarını təkmilləşdirir. Tarixi abidələrə və şəhidlər xiyabanına ekskursiyalar, vətənpərvərlik mövzulu seminarlar və müsabiqələr bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edir.

Hərbi idman oyunları, simulyasiya proqramları və hərbi təlimlər gənclərin vətənpərvərlik hisslərini real təcrübə ilə zənginləşdirir. Bu cür fəaliyyətlər, həmçinin, onların fiziki hazırlığını və psixoloji dözümlülüyünü artırır.  Müharibə içtirakcıları, silahlı qüvvələr veteranları və qazilərlə görüş gənclərdə vətənə sədaqət hisslərini dahada gücləndirir. Şəhidlərin xatirəsinin anılması və bu qəhrəmanların həyat hekayələrinin təqdim edilməsi gənclərdə vətənə olan məhəbbət hissini güclərdirir. Könüllülük fəaliyyəti də praktik təcrübənin bir hissəsi kimi nəzərdən keçirilir. Gənclər könüllü olaraq hərbi-vətənpərvərlik tədbirlərində iştirak etməli, vətənin müdafiəsi ilə bağlı tədbirlərə cəlb olunmalıdırlar. Hərbi-vətənpərvərlik tərbiyəsində qarşılaşdığımız əsas problemlərdən biri müasir dövrdə gənclərin vətənpərvərlik hisslərinin zəifləməsidir. Bu, qloballaşma, texnoloji asılılıq və 238nnova şəbəkələrin təsiri ilə əlaqədardır.Tədris proqramlarında mövzuya kifayət qədər yer ayrılmaması, müəllimlərin peşəkar hazırlıq səviyyəsinin aşağı olması və metodiki çatışmazlıqlar bu sahədə problemlər yaradır. Həmçinin, gənclərin motivasiyasının az olması və praktik tədbirlərin yetərli olmaması da diqqətə alınmalı məsələlərdir.

Bu problemlərin həlli üçün vətənpərvərlik tərbiyəsinə 238nnovative yanaşmalar tətbiq edilməli, texnologiyadan səmərəli istifadə edilməli və gənclərin bu prosesə daha aktiv cəlb olunması təmin edilməlidir.Gələcəkdə vətənpərvərlik tərbiyəsinin inkişafı üçün dövlət dəstəyi

DOI:10.30546/gdu.5.2025

artırılmalı, təhsil proqramlarına yeni metodikalar əlavə edilməli və məktəblərdə bu mövzuda tədqiqatların aparılması təşviq edilməlidir.

**Ədəbiyyat**

1. Hərbi bilik jurnalları 2015-2018.
2. İ.B.Əsgərov, T.R.Fərzəliyev. İbtidai hərbi təlimin metodikası. Bakı- 1999.
3.X.Q.Fətəliyev. Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi. Bakı-1987.
4. İnternet resursları.

## ОРГАНИЗАЦИЯ ВОЕННОЙ ПОДГОТОВКИ МОЛОДЁЖИ В СРЕДНЫХ ШКОЛАХ

***Гусейнов Фикрет Бахлул оглы, Бабайева Нурлана***

***Резюме***

В статье говорится об уважение к национальным традициям, о любви к родине и освоение военных знаний у молодёжи. Такие упоминается о правильной военной подготовки, об организации в средних школах, о правильной вы стройни системы и средств военной подготовки.

## THE ORGANİZATİON MİLİTARİYTRAİNİNG FOR YATH İN SECONDARY SCHOOL

***Guseynov Fikret Bekhlul, Babayeva Nurlana***

***Summary***

In this arikle speaks about respect to national traditions, about respect to national traditions, about love of country and studying youth of military knavledge. Also speaks about organization system military schools.

***Rəyçi:baş müəllim Məmmədova Mahnur***
***Daxil olma tarixi 30 sentyabr 2025-ci il***